# Qabil Quliyev: “Tamaşaçı səhnədə özünü görə bilmirsə, deməli, o güzgünü yaxşı silməyiblər”

## *“Gəlin, teatrlardan “bulyonları” yığışdıraq”*

**“Kaspi” qəzetinin “Teatr” əlavəsi Lənkəran Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Qabil Quliyevlə müsahibəni təqdim edir.**

**Elçin Cəfərov:** Deyirlər, ad insanın tale yolunu təyin edir. Lüğətlərdə istedalı, qəbul edən, bacaran anlamına gələn Qabil dini rəvayətlərdə ilk cinayətkar kimi təsvir olunur. Lord Bayron isə Qabili ilk üsyankar kimi təqdim edir. Sizə görə, kimdir Qabil?

**Qabil Quliyev:** Mən, ümumiyyətlə, adımın mənasını bilirəm, amma heç vaxt mahiyyətinə varmamışam. Düzdür, insan müəyyən məqamlarda üsyankar da ola bilir, inadkar da. Amma məncə, bu, adla deyil, insanın düşdüyü şəraitlə bağlıdır. Bəzən insanın xarakterini düşdüyü şərait formalaşdırır. Bəli, dini rəvaətlərdə Habil və Qabil Adəm peyğəmbərin övladları olub, Qabil də ilk cinayətkar. Ancaq mən hələ indiyədək heç bir cinayət törətməmişəm. Elə yaşdayam ki, güman ki, bundan sonra da cinayət eləməyə vaxtım olmayacaq (gülür).

**Könül Əliyeva-Cəfərova:** Corc Bayronun Qabili deyir ki, “mənim minnətdar olduğum bir qüvvət, təşəkkür edəcəyim bir şey yoxdur”. Qabil Quliyevin minnətdar olacağı qüvvə varmı?

**Q.Q.:** Mənim həyatda minnətdar olacağım iki şəxs olub: anam və atam. Başqa minnətdar olacağım heç kimim yoxdur. Əldə etdiyim hər şeyi xarakterimə borcluyam. Heç kim deyə bilməz ki, bugünə qədər özüm üçün kiməsə ağız açmışam. Heç vaxt! Amma çalışmışam, ətrafımdakı insanlara kömək eləyim, bacardığım qədər.

**E.C.: Bildiyimə görə, sənət müəllimləriniz Rza Təhmasiblə Əliheydər Ələkbərov olub**

**Q.Q.:** Mən Əliheydər müəllimə böyük bir şəxsiyyət kimi baxmışam həmişə. Rza Təhmasib haqqında çox danışmağa ehtiyac yoxdur, çünki onu ekranlardan yaxşı tanıyırlar. Əlideydər Ələkbərov isə rejissor olduğu üçün o qədər də məşhur deyildi. Allah hər ikisinə qəni-qəni rəhmət eləsin, böyük şəxsiyyət idilər. Əliheydər müəllim tələbəlik illərimdə çox dəstək olub mənə. Oxuya-oxuya məni Akademik Milli Dram Teatrına əvvəl fəhlə, bir ildən sonra aktyor heyətinə işə götürüb. Olduqca gözəl, səmimi insan idi. O ki qaldı sənətə gəlməyimə, neft sənayesi məktəbini qırmızı diplomla bitirib, Neft akademiyasına imtahan vermişəm, amma sonuncu imtahandan qaçmışam. İncəsənət İnstitutuna gəlmişəm.

**E.C.: Yaxşı ki, gəlmisiz**

**Q.Q.:** Hərdən soruşurlar, dünyaya ikinci dəfə gəlsəydiniz, yenə bu sənəti seçərdinizmi? O şey ki, mümkün deyil, o barədə danışmayaq, ona görə də bu sualı mənə verməyin.

**K.Ə-C.: Elə bir fikrimiz də yoxdur. Amma bu sualı verəcəyəm: Bir ailədə iki Xalq artisti, yaxud iki qoçun başı bir qazanda qaynayırmı?**

**Q.Q.:** Siz fikirləşmirsiz ki, biz müxtəlif qazanlardayıq?

**K.Ə-C.: Amma böyük mənada, bu, elə bir qazandır**

**Q.Q.:** Hər halda, mən çox şadam ki, qardaşım mənim yolumla gedir və etiraf edir ki, ilk ustadım qardaşım olub. Biz sənət aləmində həmişə birbirimizi başa düşmüşük. Yəni, çalışmışıq sənət aləmində elə bir iz qoyaq ki, heç kim deyə bilməsin, onlar sənətdə təsadüfi idilər. Yəqin, bundan sonra da bu “xoşbəxtliyi” heç kimə nəsib etməyəcəyik.

**K.Ə-C.: Bu layihədə Nurəddin Mehdixanlı ilə müsahibə də eləmişik. Bir-birinizə o qədər bənzəyirsiniz ki**

**Q.Q.:** Sanki doğma qardaşıq, hə? (gülür)

**K.Ə-C.: Zahiri baxımdan demirəm, xaraktercə. Yəqin bu dəmir xarakter ailədən gəlir.**

**Q.Q.:** Anam müharibənin ağır illərində məktəb yaşlı uşaqlara yazıb-oxumaq öyrədirdi, atam ziyalı idi. Böyüdüyümüz ailədə uşaqlara ciddi münasibət vardı. Atam o qədər sərt adam idi ki, ömrü boyu heç bir övladını əzizləməyib, öz sevgisini içində saxlayıb. Biz də ona oxşamışıq. Ona görə də bəzən kənardan deyirlər, Qabil o qədər sərtdir ki, bir az acı dadır. Mən də demişəm, dadmadığınız şey haqqında danışmayın (gülür).

**E.C.: Yaşadığınız həyat, keçdiyiniz tale yolu bu yanlardan baxanda, bir az obrazlı səslənəcək, çinarı xatırladır. Qocaman, mərd, qürurlu, dürüst, müdrik və gənclərə qol-qanad verən bir çinar... 70 yaşlı qocaman çinar sənətin hansı sirlərini gizlədir özündə?**



**Q.Q.:** Belə bir rəvayət var, biri o qədər yolunu azır ki, öz ustadını bəyənmir, axırda ustadını döyüşə çağırır. Ustad qısa müddətdə bunu məğlub edir. Qayıdır ustadına ki, sən necə ustadsan, bu sirri mənə öyrətməmisən? Deyir, əgər sənə hər sirri öyrətsəydim, bu gün sənin kimi nankor tələbəni məğlub edə bilməzdim. Mən də çalışıram ki, sənətin sirlərini bu sənəti sevib gəlmiş insanlara öyrədim.

**K.Ə-C.: Bütün sirləri öyrədirsiniz, yoxsa saxladığınız bir sirr mütləq olur.**

**Q.Q.:** Sənətin sirlərini verirəm, amma öz sirrimi heç vaxt vermirəm.

**K.Ə.: Kamal Abdullanın təbirincə, sirr açılırsa, o artıq sirr deyil**

**Q.Q.:** Elədir

**K.Ə-C.: Köçəri quşun yuvası olmaz deyirsiz müsahibələrinizin birində. 45 il köçəri həyat yaşamaq çətin olmayıb?**

**Q.Q.:** Mən bu həyata köçəri həyat deməzdim. Doğrudur, bütün ömrümüz təkər üstündə keçir. Amma sonda yığışacağımız bir ocağımız var - o da teatr. 1973-cü ildən çalışdığım bu sənət ocağı mənim evimdir. Hara getsəm, hara fırlansam, son dayanacağım buradır.

**E.C.: Düşünürsüz ki, Qabil Quliyev yerindədir**

**Q.Q.:** Bilirsiz, onu mən deyə bilmərəm. Onu teatr biliciləri, tamaşaçı deyə bilər. Amma çalışmışam ki, həmişə yerimdə olum. Bu da az zəhmət tələb elәmir.

**K.Ə-C.: Qabil Quliyev Lənkəran teatrına çox şey verib, bəs, əvəzində nə qazanıb?**

**Q.Q.:** Biz dünyaya qazanmaq üçün gəlməmişik ki... Müəyyən yaşa qədər yığdıqlarımızı qaytarmaq üçün gəlmişik. Qaytarıb veririk, özümüz gedirik, bizdən sonrakılar yadlarına salsınlar ki, beləlәri də var imiş.

**E.C.: Burda qaldığınız üçün təəssüfləndiyiniz məqamlar olub?**

**Q.Q.:** Yox, təəssüf eləməmişəm. Məndə belə bir xüsusiyyət var ki, harada olmuşamsa, çalışmışam, o yerin çətinliyinə, şəraitsizliyinə dözüm. Bilmirəm bu yaxşıdır, ya pisdir. Mənə görə, insan həyatın sınaqlarına, çətinliklərinə dözmürsə, heç nə qazana bilməz. İnsan o vaxt insan olur ki, o çətinliklərə qalib gəlmək gücünü tapır və öz işini bilir.

**K.Ə-C.: Amma etiraf edək ki, sizin potensialda olan bir aktyor üçün bölgə teatrında qalmaq böyük fədakarlıqdır. Nəyin müqabilində bu fədakarlıq? Sizi Lənkərana bağlayan nədir?**

**Q.Q.:** Bu bölgə sözündən acığım gəlir. O sözü qəbul eləmirəm. Bütövlükdə Azərbaycan Rusiyanın bir vilayətindən kiçikdir. Onlar deyə bilər əyalət, bizim isə Azərbaycanda əyalət sözünü işlətməyə haqqımız yoxdur. Azərbaycan elə böyük bir məmləkət deyil ki, biz onu əyalətlərə bölək. Mənim üçün Bakı da birdir, Şəki də, Gəncə də, Lənkəran da. Lənkəran teatrının bu yaxınlarda 130 yaşı olacaq. 130 yaşlı teatrı olan bir şəhərə əyalət demək olarmı?

**K.Ə-C.: Mən əyalət demədim, bölgə dedim.**

**Q.Q.:** Bölgə demək olar?

**K.Ə-C.: Mərkəzdən uzaq deyək.**

**Q.Q.:** Yola çıxanda iki saata paytaxtdayıq. O ki qaldı, sizin sualınıza, bilirəm, nə demək istəyirsiz. Sənətini sevirsənsə, şöhrət dalınca qaçma, sadəcə, sev, şöhrət özü səni tapacaq.

**E.C.: Mən də, “əyalət teatrı” ifadəsinə qarşıyam. Düşünürəm ki, düzgün təyin deyil, ancaq coğrafi mövqeyinə görə bölgə teatrı ifadəsini işlətmək olar. Mənə görə, əyalətçilik teatrın yerləşdiyi coğrafi ərazidən qətiyyən asılı deyil. Bakının mərkəzində də əyalət təfəkkürünə çox rast gəlmişik. Gözdən iraq bir yerdə əyalət təfəkkürünə qapanıb qalmamaq üçün nə edirsiniz?**

**Q.Q.:** İnsana göz verilib, qulaq verilib. Beş duyğu üzvü ki var, onlar insana boş yerə verilməyib ki? Hər bir azərbaycanlı bir vətəndaş olaraq, öz tarixini, mədəniyyətini, incəsənətini bilməlidir. Dünya ədəbiyyatını oxumalıdır. İnsanı zənginləşdirən ədəbiyyatdır. Aktyor üçün mütaliə, dünya ədəbiyyatını, dramaturgiyasını bilmək, öz ədəbiyyatını öyrənmək vacibdir. Aktor tənqidi materialları da öyrənməlidir. Aktyor bilmirsə ştanget nədir, drapirovka nədir, niyə teatrda işləyir?

**E.C.: Ancaq Azərbaycan teatrında dediklərinizi bilməyənlər də az deyil.**

**Q.Q.:** Sizinlə tamamilə şərikəm. Bir zamanlar İncəsənət İnstitutunda aktyorluq fakültəsinə 20 adam qəbul olunardı. Onlardan da 5-6-sı aktyor olsa, böyük uğur sayılardı. Bu gün İncəsənət Universiteti ildə nə qədər aktyor buraxır? Hanı o aktyorlar? Aktyorluq fakültəsini bitirmiş hər bir adam mütləq yolunu teatrdan salmalıdır. Teatrın tozunu udmalıdır. Tər tökməlidir. Tamaşaçının nəfəsini hiss etməlidir.

**E.C. Mənə elə gəlir ki, burada bayaq dediyiniz şöhrət dalınca qaçmaq məsələsi də böyük rol oynayır. Gənclər çox tez, hətta birinci kursdan məşhurlaşmaq istəyirlər**

**Q.Q.:** Bu xəstəlikdir. Sonu hara gedir onların? Bu gün Azərbaycanda çəkilən seriallar sənət nümunəsi deyil. Hətta onu çəkənlərin çoxu heç rejissor deyil, ssenarisini yazanlar ssenarist deyil, ifaçıların da bəzilərinin aktyor sənəti ilə heç bir əlaqəsi yoxdur. O işlərin heç biri sənət nümunəsinə çevrilib qalmayacaq, hamısı məhv olacaq. Özləri məhv olmaqla yanaşı, sənətdə can verən adamların böyük bir nəslini də məhv edəcəklər.

**K.Ə-C.: Nə təklif edirsiniz?**

**Q.Q.:** Bu gün ən böyük bəlalardan biri də təyinatın ləğv olunmasıdır. Təyinat mütləq tətbiq olunmalıdır. Aktyorlar teatra göndərilməlidirlər. Qoy çalışsınlar, vuruşsunlar, teatrın, səhnənin nə olduğunu bilsinlər. Amma indi azad təyinat sistemidir, konveyer üsulu ilə bir ucdan ştamplayıb buraxırlar aktyorları. Onlar da çalışırlar ki, min yolla ilişib qalsınlar paytaxtda. Axı, paytaxt teatrlarının ştat cədvəli rezindən deyil! Buna görə də hamısı avara qalır. Gedirlər seriallara, seriallar da onları şikəst eləyir. Buna yol verməmk olmaz. Nə üçün gəlib Şəki, Lənkəran, Mingəçevir, Gəncə teatrlarında işləmək istəmirlər?

**E.C.: Görəsən, bayaq dediyiniz dövrlərdə təyinat olmasaydı, bölgə teatrlarında işləmək istəyənlərin sayı bu qədər çox olardımı?**

**Q.Q.:** Bu teatra təyinatsız gələnləri də çox görmüşük. Gəliblər, işləyiblər, gedəni gedib, amma sənətə bağlı olan adamlar kök salıb qalıblar. Kim ki, sənətə təsadüfi gəlib, onun üçün fərqi yoxdur, Akademik Milli Dram Teatrında işləsə də, o, teatrda sənətin çətinliyini görüb qaçacaq. Sənətdə qalmaq asan deyil. Bu sənətin özəlliyi ondadır ki, insanı sınaqdan çıxarır, bərkə-boşa salır, yoxlayır.

**K.Ə.: Lənkəran teatrı tarixi, ənənələri, uğurları olan teatrdır. Bu gün teatrınız hansı yaradıcı iştiqaməti tutub?**

**Q.Q.:** Teatrda tamaşalar hazırlayanda istifadə etdiyimiz cərəyan realistik cərəyandır. Bir zamanlar sosializm realizmi deyilən bir anlamla çalışırdıq. Düzdür, realizm realizmdir, sosializmin realizmi yoxdur, amma, sadəcə olaraq, quruluşun konyuktur tələblərinə cavab verilən əsərlər tamaşaya qoyulmalı idi. Adını da qoymuşdular sosrealizm. Sosializmi götürsək, realizm elə realizmdir. Estetikanın bir qanunu var: bütün dövrlərdə, bütün zamanlarda, bütün incəsənət növləri mövcud zamanın, mövcud hakimiyyətin arzu və istəklərinin təmsilçisidir. Bu günün tələbləri nədirsə, biz ona cavab verən tamaşalar qoymalıyıq. Bu gün səhnədən ictimai mühiti, cəmiyyəti düşündürən problemlər səslənməlidir.

*(Davamı səhifə 11-də)*

# Qabil Quliyev: "Tamaşaçı səhnədə özünü görə bilmirsə, deməli, o güzgünü yaxşı silməyiblər"

## *"Gəlin, teatrlardan "bulyonları" yığışdıraq"*



*(Əvvəli səhifə 10-da)*

**K.Ə-C.: Hazırda Lənkəran teatrında qoyulan tamaşalar dediyiniz tələblərə cavab verirmi?**

**Q.Q.:** Məsələn, biz bu yaxınlarda M.Meterlinkin "Korlar" əsərini tamaşaya qoyduq.

**E.C.: Tamaşa simvolizm cərəyanının tələblərinə uyğun şəkildə hazırlanmışdı, yoxsa onu da realist üslubda qurmuşduz?**

**Q.Q.:** Biz o tələblərə əməl etmişik. Tamaşanı Emil Əsgərov hazırlamışdı. Son dövrlərdə Mədəniyyət və İncəsənət Universitetindən məzun olan ən istedadlı rejissorlardan biridir. Mən Emilə görə, Universitetə və Bəhram Osmanova minnətdaram.

**K.Ə-C.: Siz də o tamaşada oynamısız.**

**Q.Q.:** Bəli, Ən qoca kor rolunu ifa etmişəm. İndi Emil Lənkəran teatrında ikinci böyük tamaşasını hazırlayır. Miodraq Bulatoviçin "Qodo gəldi" əsəri üzərində işləyirik.

**E.C.: Yəqin absurd cərəyanında işləyəcəksiz?**

**Q.Q.:** Bəli, absurd dramaturgiyadır. Amma bir məsələ var. O tipli əsərlər elə işlənib hazırlanmalıdır ki, onu tamaşaçı "yeyə" bilsin. Emil "Korlar"ı hazırlayanda çoxları tamaşaya şübhə ilə yanaşırdı. Ancaq rejissor elə işləmişdi ki, tamaşaçı zaldan çıxmırdı, hamı donub qalmışdı. Çünki tamaşada qoyulan problemlər bu gün cəmiyyəti düşündürən, narahat edən problemlər idi. Ona görə də tamaşanı qəbul elədilər. İndi çalışırıq, Qodonu da elə işləyək ki, onu da iştahla "yeyə" bilsinlər.

**E.C.: Əslində, bəzi teatr adamları, xüsusilə teatr rəhbərləri və rejissorlar öz iqtidarsızlığını gizlətmək üçün tamaşaçı amilindən qalxan kimi istifadə edirlər. Tamaşaların aşağı səviyyəli olmasına bəraət qazandırmaq üçün "tamaşaçı bunu istəyir" bəhanəsini gətirirlər. Amma mən dəfələrlə müşahidə etmişəm ki, yaxşı tamaşanın tamaşaçısı olur. Bakıda da, Şəkidə də, Lənkəranda da, fərq etməz. Ola bilər kütləvi olmasın, cəmiyyətin konkret seqmentinə mənsub insanlar olur, amma olur.**

**Q.Q.:** Xəstəxanada xəstələrə nə yemək verirlər?

**E.C.: Bulyon.**

**Q.Q.:** Niyə?

**E.C.: Çünki onu həzm edə bilər.**

**Q.Q.:** Sən sağlam adama bulyonu nə qədər verə bilərsən?! Axırda xəstələndirəcəksən sağlam adamı da. Mən deyirəm ki, gəlin, teatrlardan "bulyonları" yığışdıraq. Tamaşaçımıza "xəstə yeməyi" verməyək, sağlam mədənin yeməyini verək ki, bu insanlar alışsınlar ona. Sənət əsəri tamaşaçıları oyatmalıdır. Ancaq bizim bu gün müasir dramaturqlarımız belə əsərlər yazırlarmı?

**E.C.: Demək olar ki, yox.**

**Q.Q.:** Bu mədhiyyəçilik evini yıxıb dramaturgiyanın. Odur ki, biz birinci növbədə dramaturgiyadan başlamalıyıq.

**E.C.: Bir məsələ də var, biz deyirik ki, Azərbaycan dramaturgiyası yoxdur, bəs, dünya?**

**Q.Q.:** Dünya dramaturgiyasını - İbseni, Çexovu, Brexti nə qədər qoya bilərik. Adama sual verərlər ki, bəs, mənsub olduğunuz xalqın dramaturgiyası hanı? Bu xalq bəşəriyyətə Cavidi verib, Axundzadəni verib, Cəlili verib, Cəfəri verib. Bəs, indiki Cəfərlər, Cavidlər hanı?

**K.Ə-C.: 37-də qırıldı hamısı... Yaxşı dramaturqlar yaxşı atları minib getdilər.**

**Q.Q.:** Bu gün də yazanlar var.

**K.Ə-C.: Müasir dramaturqlarımızın əsərlərini oxuyursunuzmu?**

**E.C.: Çap olunur ki?!.**

Q.Q.: Əvvəla, bu gün get kitabxanaya, müasir dövrün dramaturgiyasına aid bir dənə də kitab yoxdur. Hansı yazıçının, hansı şairin ya adamı, ya da pulu varsa, öz kitabını çap elətdirir, uzaq başı ondan 10 nüsxə kitabxanaya verilir, bəs, qalanı hardadır? Bəlkə də, kiminsə sandığında yaxşı pyeslər var, ancaq bizim ondan xəbərimiz yoxdur. Gərək dərc oluna ki, onu oxuyaq. Mən nə vaxta qədər internetdə pyes axtarmalıyam?! Qabaq Azərbaycan jurnalı pyesləri çap eləyərdi. Rusiyadan "Teatr" jurnalı alardıq. Orada postsovet məkanının dramaturqlarının müəyyən pyesləri çap olunardı. Hər nüsxədə, ən azından, bir-iki pyes olurdu. Bu problem həll edilməlidir. Bir də kimin imkanı var, adamı var, pyesi teatrlara yol tapır, kimin imkanı yoxdur, qalır.

**E.C.: Səhnəyə yol tapan hər bir keyfiyyətsiz pyes Azərbaycan teatrını, ən azı, 5 il geriyə salır.**

**Q.Q.:** Bu dramaturqlar elə bil ki, bir-birilərinin yazdıqlarını təkrarlayırlar. Süjet xətti də eynidir, mövzu da eynidir. Sadəcə, personajların adları dəyişilir. Elə bil ki, bu xalq nə 20 yanvar faciəsini, nə də Xocalı soyqırımını yaşamayıb.

**K.Ə-C.: Nə də Qarabağı...**

**Q.Q.:** Qarabağ unudulub tamamilə. Bütün bu hadisələr haqqında əsərlər, pyeslər, ssenarilər yazılmalıdır. Dünyaya yayılmalıdır, nümayiş olunmalıdır.

**E.C.: Əvvəllər teatrlar da dramaturgiyanın inkişafında maraqlı idilər. Hansısa istedadlı nasiri dəvət edirdilər və mövzu verib pyes sifariş edirdilər. İndi bu proses varmı?**

**Q.Q.:** Bilirsinizmi, yaxşı pyes - problemi olan pyes tapmaq asan deyil. Müəllif deyir ki, mən pyesimi aparıram Bakı teatrlarına. Müasir dramaturqların əksəriyyətinin əsərlərində hadisə yoxdur, ancaq söz yığınıdır. Söz yığını ilə neyləmək olar, axı? Yəni bu gün bizim həyatımızda ictimai mühiti düşündürən problem yoxdur? Onları niyə qələmə almırlar?

**K.Ə-C.: Bir azdan Qarabağ hadisələrinin canlı şahidləri qalmayacaq.**

**Q.Q.:** Onun üçün də bu gün o problemləri qabartmaq lazımdır, o, ədəbiyyata köçməlidir, səhnə əsərlərinə çevrilməlidir.

**K.Ə-C.: Mən Qarabağda doğulmuşam, amma orda böyüyə bilməmişəm. Altı yaşımda vətənimizdən didərgin düşmüşük. 30 ilə yaxındır, Qarabağ düşmən tapdağı altındadır və orada doğulan erməni uşaqlar indi təxmini biz yaşdadırlar. Bir dəfə Minskdə bir erməni məndən haralı olduğumu soruşanda "Qarabağlıyam" dedim. "Yerliyik ki" dedi, donub qaldım. O, Qarabağda böyüyüb, mən orada böyüməmişəm. O da deyir, Qarabağ mənim yurdumdur, mən də.**

**Q.Q.:** Nə qədər ki, bu faciəvi hadisələr qələmə alınmayıb, tarixə çevrilməyib, getdikcə unudulacaq. Gözümüzün qabağında baş verən hadisələri, reallıqları sənət əsərinə çevirə bilmirik. Niyə? Çünki sevgimiz dilimizdədir. Hərə öz silahı ilə vuruşmalıdır.

**K.Ə-C.: Sənətçinin sənət kimi bir silahı var.**

**Q.Q.:** 20 yanvar, Xocalı, Qarabağ hadisələrindən bəhs edən gözəl bir əsər qoyun ortaya, teatr tamaşaya hazırlasın o əsəri, onunla çıxsın beynəlxalq arenaya.

**E.C.: Mövzudan çox yayındıq. Qayıdaq söhbətimizin davamına. Hazırda şəhərinizdə beynəlxalq festival keçirilir. Bu festival teatra, konkret olaraq Lənkəran teatrına nə verir?**

**Q.Q.:** Əslində, teatr festivalına gələn kollektivlər tamaşasını oynayıb getməməlidirlər. Orda kollektivlər görüşməlidirlər, diskussiya olmalıdır. Onlar biri-birilərindən öyrənməlidirlər. Festival yaradıcılıq laboratoriyasına çevrilməlidir. Yaradıcı insanların ünsiyyəti yaranmalıdır. Teatrlar bir-birilərini tanımalıdırlar. Aktyor hara getdisə, orada teatr varsa, o, özünü öz evində olduğu kimi hiss eləməlidir. Teatr aktyorun evidir.

**E.C.: Mən neçə gündür, müşahidə edirəm, Gəncə Teatrının, Akademik Teatrın, Kukla Teatrının, Bakı Uşaq Teatrının, hətta İran teatrının aktyorları Lənkəran Teatrının xudmani həyətində, həqiqətən də, özünü evindəki kimi hiss edirdi.**

**Q.Q.:** Teatrın ki, qapısından girdin içəri, bu evin adamısan. Çünki sənin adın var: Aktyor, Rejissor. Əvvəla, festival bu şəhərin, şəhər rəhbərliyinin, şəhər ictiamiyyətinin adıdır, ikinci, o şəhərdə böyük bir sənət bayramıdır, üçüncüsü, teatr sənətçilərinin biri-birilərini tanıması, ünsiyyətə olması üçün imkandır, sənət mübadiləsidir.

**E.C.: Biz xoşlayırıq dünyaya, Avropa teatr məkanına inteqrasiyadan danışmağı. Zənnimcə, daxili inteqrasiya heç də az əhəmiyyət kəsb etmir. Əslində, bu cür festivallar teatrlarımızın daxili inteqrasiyası baxımından olduqca əhəmiyyətlidir.**

**Q.Q.:** Festivallar çox vacib və gərəkli hadisədir. Festival, doğrudan da, sənət bayramına çevrilməlidir. Həqiqətən, bayram əhval-ruhiyyəsi olmalıdır.

**K.Ə-C.:** Biz Bakıda teatrın maskalanmış üzünü görürük. Əslində, teatrın çılpaq üzü elə buradadır. Qabil Quliyevə teatrın hansı üzü doğmadır? Maskalanmış, ya çılpaq?

**Q.Q.:** Tamaşaçıya çevrilmiş üzü.

**E.C.: Maskadan söz düşmüşkən, müdriklərdən biri deyib ki, bəşər oğlunun ən böyük kəşfi ağlayan və gülən maskadır. Ağlayan maska sanki Qabil Quliyevin ömrünə biçilib: Oqtay, Qacar, İskəndər, Edip, Xosrov, Yanar və b. Gülən maska sizə yaraşmayıb, ya siz özünüzə yaraşdırmamısınız?**

**Q.Q.:** Mən bu teatrda, az da olsa, komik rollar oynamışam.

**K.Ə-C.: Amma az...**

**Q.Q.:** Rejissorlar çox zaman xarakterimə uyğun olaraq, mənə "ağlayan gözləri" tapşırırlar. Amma maskanın ağlayan tərəfi də, gülən tərəfi də əzizdir. Elə komediyalar var ki, faciədən daha güclü təsir göstərir. Aktyor yeganə varlıqdır ki, öz həyatını çox az yaşayır. Onun yaşadığı həyat oynadığı obrazların həyatıdır. Ona görə də maskanın hər iki üzü mənə doğmadır.

**K.Ə-C.: Sizcə, ampluanı aktyorun zahiri görkəmi təyin edir, ya daxilindən, mahiyyətindən gəlir?**

**Q.Q.:** Amplua sözünü qəbul etmirəm.

**K.Ə-C.: Ancaq siz ampluası olan aktyorsuz.**

**Q.Q.:** Rejissor var ki, hazırladığı bütün tamaşalarda Qabili görür. Mən bu teatrda əyyaş da oynamışam, tüfeyli də oynamışam, məhbus da.

**K.Ə-C.: Nurəddin Mehdixanlı deyir ki, aktyor oynadığı obrazlarla özünün xəritəsini cızır və hər obrazı ora bir rəng qatır.**

**Q.Q.:** Əsərlərində oynadığım müəlliflərdən şikayətçi deyiləm. Mənim bəlkə də oynamadığım müəllif qalmayıb. Antik yunan faciəsində də oynamışam, "Şah Edip"də Edip, Mirzə Cəlilin, Şekspirin, Şillerin, Safronovun, Ostrovskinin əsərlərində də...

**K.Ə-C.: Oynamaq istədiyiniz obraz qalıb? Məsələn, Hamlet...**

**Q.Q.:** Yox, mən Hamlet oynamaq istəməzdim.

**E.C.: İndi, yoxsa ümumiyyətlə? Yəni heç vaxt istəməmisiz?**

**Q.Q.:** Əvvəla, teatrlarda çox zaman aktyorun istəyi ilə hesablaşmırlar. Rejissorlar da çox zaman istəmirlər aktyorların arzu və istəklərini yerinə yetirsinlər. Rejissor hansı əsəri qurmaq istəyirsə, onu götürür. Mənim oynamadığım və istədiyim çox rollar var. Və bundan sonra oynamaq nəsib olacaq, ya yox, onu zaman göstərər. Amma mən çox istərdim ki, rejissorlarımız aktyorun da düşüncəsini, istəyini öyrənsinlər.

**K.Ə-C.: Axı, onların da içində qurmaq istədikləri əsərlər var...**

**Q.Q.:** Bəs, niyə mən onun içindəki qurmaq istəyini icra edirəm, ancaq o, mənim içimdə oynamaq arzumu yerinə yetirmir? Axı, yaradıcılıqda hər şey qarşılıqlı olmalıdır. Sevgi birtərəfli ola bilməz.

**E.C.: Qabil Quliyevi qane eləmək üçün rejissor hanaı keyfiyyətlərə sahib olmalıdır?**

**Q.Q.:** Rejissor, birinci növbədə, ciddi olmalıdır. Rejissor hoqqabaz deyil. Teatr əyləncə yeri deyil, teatr düşüncələrin toqquşduğu yerdir. Əgər o tamaşa tamaşaçını düşündürmürsə, içindəki arzu və istəklərini oyatmırsa, necə deyərlər, onu "silkələmirsə", o tamaşa deyil.

**E.C.: Arto deyirdi ki, tamaşaçı tamaşaya kresloya yayxanıb baxa bilməz. Tamaşaçı iynə üstdə oturmalıdır.**

**Q.Q.:** Tamaşaçı səhnədə özünü görməlidir. Özünü görə bilmirsə, deməli, o güzgünü yaxşı silməyiblər.

**K.Ə-C.: Könlünə qəfil bir qayıtmaq düşər,**
**Birdən başlayarsan lap darıxmağa...**
**Dönərsən gəldiyin yola baxmağa,**
**Qəhər boğazında ilişər qalar,**
**Dönüb görərsən ki, divardı yollar,**
**Dönüb görərsən ki, yol çıxıb gedib...**

**- Gəldiyiniz yola dönüb baxanda nə görürsünüz?**

**Q.Q.:** İnsana dağ çəkən xatirələr. Ona görə də mən geriyə baxmağı sevmirəm.

**K.Ə-C.: Şeir də yazmısınız...**

**Q.Q.:** "Keçən günlərimi qaytaraydılar,
Gələn günlərimi qurban verərdim".
Mən keçən günlərin bircə anına
Bütün həyatımı qurban verərdim.
Amma bu mümkün deyil. Odur ki, gəlin, mümkün olmayan şeylərdən danışmayaq.